


# MİRƏLƏM "ÇAHARGAH" OXUYURDU

*Mənsur şeir*

Yağışlı, küləkli bir payız günündə İTV kanalında bəstəboy, yaraşıqlı, ciddi görkəmli, ağayana bir oğlan oxuyurdu. Bal səsi, şirin avazıyla vətənimizin bütövlüyü uğrunda qazandığımız parlaq qələbə şərəfinə ahəngdar səs düzümündən al-əlvan çələng toxuyurdu. Bu güclü, məlahətli, qəltanlı, ecazkar səs, bənzərsiz ifa tərzi, dumduru, aydın, səlis diksiya, qaynar nəfəs açıq pəncərədən süzülərək çöldə balası qəhrəmancasına şəhid olmuş ana naləsiylə şivən qoparan, güclənən yağışa, küləyə qarışaraq səmaya ucalanırdı. Ətrafı yara-yara, "sahilləri" aşa-aşa, daşa-daşa, coşa-coşa.

Bu ilahi səsdən vəcdə gələn qara buludlar sıxlaşdı, çaxnaşdı, oyur-oyur oynaşdı, heyrətini dağlarla, daşlarla paylaşdı. Odlu şimşəklər sıyrılmış qılınctək şaqqıldadı, buludları dilim-dilim doğradı. İldırımlar qoşalaşdı, kələləşdi, yem üstündə boğuşan pələnglərsayağı tutaşdı, həddini aşdı. Yağış daha da gücləndi, dərələr göllləndi, dağlar selləndi...

Bu təlatümdə, çaxnaşmada gənc xanəndənin səsi getdikcə gurlaşdı... Tamaşaydı Mirələmin zil səsi - "Mənsuriyyə"si. İfaçının sonsuz şövq və coşqun ehtirasla oxuduğu muğam dəstgahı "Bərdaşt"dan, "Mənsuriyyə"yədək qanlı-qadalı cəng meydanıydı, qəhrəmanlıq, hünər məqamıydı, şücaətdi, əzəmətdi, şəhidlik şərəfi, qeyrət zirvəsiydi, damarlarında insan qanı yerinə kanalizasiya suyu axan murdar erməni vandallarına qarşı vətən müharibəsində qazandığımız böyük qələbə idi. Şanlı tariximizin yepyeni qızıl səhifəsiydi!

Yetərincə təsirli, güclü tamaşaçıda intəhasız, emosional, lirik duyğular aşılayan, yaşamağa, qurub-yaratmağa, davamlı uğurlara hayqıran o bihuşedici səs, gözəl, olduqca orijinal ifa manevrası məni qoynuna alıb xəyalən işğaldan azad edilmiş doğma Cəbrayıla apardı.

Mən ilahi qüvvənin qüdrətiylə yoğrulmuş, mayalanmış o möhtəşəm səsin sahibinə muğam müsabiqəsindəki ilk uğurlu, tərifəlayiq çıxışına baxandan vurulmuşam, gənc xanəndənin heyrətamiz, bənzərsiz oxumalarıyla durulmuşam.Tarın bütün pərdələrində eyni gözəllik, məlahət və məharət sərgiləyən Mirələmin daim təkmilləşən, yeni çalarlarla, boğaz qaynatmalarıyla, improvizələrlə cilalanan, ovxarlanan səsindən, sənətinin ecazından doymuram. Məndə heyrət doğuran başqa bir cəhər də bilirsiniz nədir? Mirələm Mirələmovun zövqləri oxşayan, ürəkləri riqqətə gətirən səsi, səmavi avazı sanki bütün dəstgahlarımızın, ritmik muğamlarımızın, təsnif və mahnılarımızın "əyninə" biçilib.

Bu, taleyin qisməti, uca Yaradanın vergisidi. Bu, anasından xoşbəxt doğulan Mirələmdi. O, başqa aləmdi!

***Qorxmaz ABDULLA,***
***AYB-nin üzvü.***
***20.12.2021***

**Kredo.- 2022- ci il.- 27 aprel.- S. 15.**